# Muğam və aşıq sənəti

## Onların tarixi kökləri barədə nə bilirik?!

● Rafiq İMRANİ,
*sənətşünaslıq doktoru, professor*

**Muğamların sirli dünyası həmişə dünya alimlərinin diqqət mərkəzində olmuşdur. Musiqişünaslar, ədəbiyyatşünaslar, tarixçilər, qədim yunan və orta əsr filosofları Şərqdə inkişaf edən bu unikal sənətin sirlərini öyrənmək üçün çoxlu tədqiqatlar aparmışlar. Dünya alimlərinin bu sənətin sirlərini öyrənmək arzusu və istəyi muğamların ümuminsaniyyətin inkişafında rolunu və əhəmiyyətini bir daha müəyyənləşdirmiş oldu. Muğam artıq qeyd etdiyimiz kimi sadəcə ənənəvi musiqi deyil. O, hər şeydən əvvəl milli və beynəlmiləl təfəkkür tərzidir. Muğam sənətinin ifa xüsusiyyətlərini, sirlərini bilən insan üçün musiqi sənətinin bütün sahələrinin qapısı açıqdır. Muğamların musiqi dilini - bəşəriyyətdə məskunlaşmış insanların çox böyük əksəriyyətinin başa düşməsi onun beynəlmiləl mahiyyət daşıdığına dəlalət edir.**

Muğam sənətinin insanın estetik inkişafına və psixologiyasına təsiri olduqca böyükdür. Muğamlar hərdən əyləndirici, hərdən ciddi olmaqla yanaşı, hərdən də insanı varlığın, materianın, həyatın mövcudluğu haqda düşünməyə sövq edir.

Muğamların melodik dili əcdadların qədim musiqi dilidir ki, minillər ərzində cilalana-cilalana gəlib bizə çatmışdır. O, lad anlayışı ilə sıx bağlıdır. Lad isə hər şeydən əvvəl muğam dinləyicisinin və ifaçısının qarşılıqlı təmasda olduğu və burada müəyyən halları, hissləri yaşayan, təfəkkür tərzi keçirən məkandır. Muğam havalarının melodiyaları müxtəlif xarakterlidir. Onlar minillərdən bəri Şərq poeziyasının şedevrləri ilə, öncədən ən qədimlərdə sərbəst vəznlə, daha sonralar heca, məsnəvi, rübai, qəsidə, bayatı və nəhayət qəzəllərlə sıx bağlı olmuşdur. Bu musiqidə sakitlik və ehtiras, ekstaz, yüksək gərginlik yanaşıdır. Sufilərə qədər qədim ənənədə mağlar və dərvişlər muğam havalarının mahir ifaçıları olmuşlar.

Muğam insanı kamilləşdirməyə, zəka və idraka qida verməyə xidmət edir.

Muğam insanı hikmətə, məhəbbətə, həqiqəti dərk etməyə, varlığa inama səsləyən qədim ənənəmizdən gələn müdrik sənət növüdür.

Muğam insanın harmonik müvazinətini tənzimləyən, həyata sevgi və məhəbbət oyadan, nəhayət əsrlərdən bəri bəşəriyyətin mənəvi dəyərlərinin inkişafında mühüm rol oynamış sənət abidəsidir. Bu mənada muğam həm müdriklik, həm də məhəbbət rəmzləridir.

Muğamlar qədim birhissəli formaya məxsus musiqi havaları olub minilliklər keçərək dövrümüzə qədər gəlib çıxmışdır. Muğamların qədim şumer dövrü ilə bağlı ol-

ması haqda kifayət qədər elmi faktlar üzə çıxarılmış və bu haqda kitablar da nəşr edilmişdir. Tədqiqatlar nəticəsində daha yeni materiallar əldə edildiyinə görə muğamların tarixinin b.e.ə. XII minilliklə və ondan da qədim dövrlərlə bağlı olması üzə çıxarılmışdır.

Muğam sözünün kökü muğ sözündən irəli gəlir. Muğ-mağ isə Azərbaycan xalqının qədim etnik soy kökündə duran tayfanın adını bildirir və mənası od deməkdir. Tarixi faktlar sübut edir ki, qədim Midiyada yaşamış Muğ-mağ kahinləri dövlətin idarə olunmasında, elmdə, incəsənətdə, təbabətdə, musiqi sənətində və dini etiqadları icra edən mahir istedada malik insanlar olmuşlar. Onların yaşadığı ərazilərin adı tayfanın adı ilə bağlı olmuş və "Muğan" adlandırılmışdır. Azərbaycanın böyük əksər ərazilərində "Muğan" adlanan kənd və qəsəbələr vardır. Muğam havalarının Muğanla bağlı olması faktına işarə edən görkəmli tarixçi filosof şair N.Gəncəvi "İqbalnamə" əsərində "Müğənni, qədim bir hava çal, Muğlar kimi bir muğan havası çal",- deməsi muğam havalarının qədim adının muğan havası olmasını bir daha ortaya çıxarmış olur.

İsgəndərin yeddi filosofla xəlvətə çəkilməsi səhnəsində şairin yenə də muğan havasına işarə edərək onu qədim hava adlandırması deyilən fikrin məntiqi baxımdan özünü doğrultduğunu bir daha təsdiq edir.

Muğamın qədimdə Muğan havası kimi tanınması faktına bəraət qazandıran digər bir tutarlı faktı oxucuların, muğamsevərlərin, musiqişünasların və tədqiqatçıların diqqətinə çatdırmaq istərdim.

Tarixi təhlillər sübut etdi ki, qədim muğam havalarının bir çoxu ölkə, şəhər, xalq, tayfa, milli qəhrəman, şah, şahzadə və s. adlarla bağlı yaradılmışdır. Bunları aşağıdakı kimi sistemləşdirərək göstərək:

1. Ölkə, vilayət ilə bağlı; İraq, Azərbaycan, Mahur-Hindi (Hind Mahuru - İ.R.), Rak-Hindi, Rast-Hindi, Kərkük, Rak-Xorasani (Xorasan Rakı-İ.R.) Bayatı-Əcəm və ya Əcəmi (ərəb olmayan deməkdir-İ.R.), Dəşti (qıpçaqların yaşadığı çöl-düzənlik), Mavəra-un-Nəhr, Giləki, Qarabağ-şikəstəsi, Şirvan-şikəstəsi, Səlyan-şikəstəsi, Quba-şikəstəsi, Lənkəran-şikəstəsi, Xavəran, Xavər-zəmime (Şərq - İ.R.) və s.

2. Şəhər adı ilə bağlı; Bayatı-Şiraz, Bayatı-İsfahan, Şüştər, Bağdadi, Mahur, Qəraçi (Kərəçi - İ.R.), Kabuli, Herati, Nişapur, Hicaz və s.

3. Xalq, tayfa adı ilə bağlı; Türki, Bayatı-Türk, Osmanlı, Ərəbi, Kürdi, Ovşarı (Əvşari), Bayatı, Kərkuki, Hezarə (türk tayfası), Pəhləvi, Şikəsteyi-Fars, Azərbaycan və s.

4. Şahlarla, şahzadə və milli qəhrəman adları ilə bağlı; Aşşurəvənd (şumer şahı Aşşur), Məzdəkani, Xosrovani, Bāği-Şirin (şahzadə - İ.R.), Şah Xətai, Koroğlu, Bayatı-Qacar, Əfşari, Şahnaz və s.

5. Novruz bayramı ilə bağlı; Novruz-Xara, Novruz-Rəvəndə, Novruz -Səlmək, Novruz, Novruz-Səba və s.

Verilən izahlardan aydın olur ki, müxtəlif məkan, ölkə, tayfa, şəhər, qəhrəman adları ilə muğamlar olmuşdursa, deməli, Dəşti kimi "Muğan" ərazi adı ilə bağlı qədim "muğan havaları" olmuşdur. Zaman keçdikcə həmin havalar ümumi muğam adı ilə adlandırılmışdır.

Azərbaycanın qədim dini mərasimlərində hələ b.e.ə. I minillikdə, Zərdüşt peyğəmbərin zamanında Ahura-Məzdaya, Mitraya müraciətlər kahin mağ tərəfindən oxunduqdan sonra, onu xorla sitayiş edən kütlənin oxuması elmi ədəbiyyata məlumdur. Bu fakt qədim dini mərasimlərdə Midiya dövründə solo və xorla oxumaq ənənəsinin olmasını göstərir. Aşağıdakı şeirdə N.Gəncəvi buna işarə etmişdir.

*Tovhid qarşısında çal, yüksəlt səsi,*
*Nədir işlətdiyin muğlar nəğməsi?*
*Zənd oxuyan səni bilsə də diri,*
*Ölü deyər dünya söz bilənləri...*

Qədim əcdadlarımızın Ahura Məzdaya, Mitraya oxuduğu dualardan çoxlu nümunələr gətirmək olar. Lakin məqsədimiz faktların çoxluğunu göstərmək deyil. Midiyanın xəritəsində muğamların yayıldığı ərazilər göstərilmişdir. Bu faktlar qədim muğamların yarandığı böyük ərazilər göstərməklə yanaşı onların hansı regionlarda yayılmasını da bariz şəkildə üzə çıxarır.



Tədqiqatlar sübut edir ki, vaxtılə bir mədəniyyət olmuş və Azərbaycan türklərinin yaşadığı ərazilərdə yaranıb formalaşmış muğam, aşıq havaları başqa xalqların ənənəsinə də bu dövrlərdə nüfuz etmişdir. Tarixi məlumatlara görə böyük əksər dərvişlər subay olduqları üçün bir yerdə məskunlaşmazdılar. Onlar eldən-elə gedərək öz sənətlərini, milli ənənəni bu diyarlarda, ölkələrdə yayardılar.

Son illərin tədqiqatları sübut etdi ki, muğamların yaranması və inkişafı nə orta əsrlərlə, nə də ki, Sasanilər, Midiya və şumer dövrü ilə bağlı olmuşdur. Qeyd etdiyimiz dövrlər muğamların inkişaf dövrləri kimi tarixə düşmüşdür. Muğamların və aşıq musiqisinin tarixi daha qədim dövrlərlə bağlıdır. Muğam havaları ayrı-ayrı dövrlərdə müxtəlif musiqi alətlərində çalınmışdır. Müasir dövrümüzdə muğamlar tar, kamança, ud, kanon, balaban, ney, saz və b. alətlərdə çalındığı kimi qədim dövrlərdə də qeyd edilən alətlərdən başqa tənburda, çəngdə, nüzhədə, müğnidə, setarda, çartarda, pənctarda və başqalarında ifa edilərdi. Saz çox qədim tarixə malik alətlərdən olduğu üçün onun qolunda bağlanmış pərdələr riyazi düsturlar əsasında hesablanmış və fikrimizcə, unikal nəticələr əldə edilmişdir. Bir çox folklorşünas alimlər sazın tarixini orta əsrlərlə bağlamaqla yanlışlığa yol verirlər. Qədim sazın rəsmlərinə Qobustan qayaüstü təsvirlərdə, Şumer dövründə rast gəlinməsi bu alətin çox qədim dövrlərlə bağlı olmasını bir fakt kimi təsdiqlədi. Qobustan qayaüstü rəsmlərdə Saz alətini ifa edən aşığı (və ya ifaçını), eyni zamanda sazçılar ansamblını görürük. Ansamblın rəsmində sazın başının aşağı, yəni ud alətinin başı formasında olması qədim ənənə ilə bağlıdır. Bu ayrıca bir mövzudur.

Saz üzərində son illərdə apardığımız tədqiqatlar sübut etdi ki, qədim sazın qolunda ilkin 3, sonra 5, daha sonra 7 pərdə bağlanmışdır. Pərdələrin sayı sonrakı inkişaf mərhələsində artırılmış və müasir dövrümüzdəki saya qədər çatdırılmışdır. Elmi tədqiqatlar göstərdi ki, qədim sazın qolundakı 7 pərdədə bütün aşıq havalarını çalmaq imkanı var.

Tədqiqatlar sübut etdi ki, qədim sazın pərdə quruluşu "Şur" muğamının lad quruluşu əsasında bağlanmışdır. İlkin səs sistemimiz də ton+yarımton sisteminə əsaslanmışdır.

Tədqiqatın nəticəsinin unikal xüsusiyyəti odur ki, qədim musiqi səs sistemimizdə do diyez, mi bekar, fa diyez, lya bekar, si bekar səslərin olmamasını ortaya çıxardı. Bu səslərin olmamasına baxmayaraq, qədim sazın pərdə quruluşunda "Şur", "Segah", "Rast", "Bayatı-İsfahan", "Əbu-Əta", "Neyriz-Kəbir", "Çoban-Bayatı" muğamlarının ladlarını almaq mümkün idi.

Deməli, adları çəkilən muğamların özünü də qədim sazda ifa etmək mümkün olmuşdur. Buradan məntiqi baxımdan həmin muğamların ən qədim muğamlar olması faktı da təsdiqlənir.

Aparılan tədqiqatların unikal cəhəti o oldu ki, Azərbaycanın qədim saz musiqi alətində əldə edilən yeni elmi nəticələrə nə ərəblər, nə farslar, nə də ki, başqa xalqlar ortaq çıxa bilməyəcəklər. Çünki, saz türkün müqəddəs musiqi aləti olub adları çəkilən xalqların musiqi ənənəsində yoxdur. Saz türkün milli təfəkkür tərzinin, onun tarixi-mədəni yaddaşının ifadəçisidir. Saz-söz sənətində mövcud olmuş poetik təfəkkür və mənəvi dünyanın dərinliklərindən qopub gələn milli musiqi ahənginin heyrətamiz əks-sədası insanı vəcdə gətirərək onu saflaşdırır və bir sıra hallarda ekstaz vəziyyətinə salaraq Allah dərgahına qədər yüksəldir.

Saz sənəti milli təfəkkür tərzi olub bütün elin-obanın əxlaqi, mədəni keyfiyyət, söz və musiqi sənətlərinin ifadəçisinə, dilinə çevrilmiş, həmçinin müqəddəsliyi özündə hifs etmiş mənəviyyat çeşməsidir. Qədim sazın qolunda bütün musiqi tonlarının olmaması və onların yerində "Şur" muğamının lad quruluşunun olması bizi aşağıdakı məntiqi nəticələrə gətirib çıxarmış oldu:

1. Aşıq sənəti ilə muğam sənəti bineyi-qədimdən ayrılmaz mənəvi varlıq, milli düşüncə

forması və milli təfəkkür tərzidir.

2. Aşıq musiqisinin bünövrəsi"Şur" muğamına söykənir və onun lad-intonasiya çeşidləri daha zəngin milli kökə əsaslanır.

3. "Şur" muğamının lad quruluşunun qədim sazın pərdə quruluşunun özəyini təşkil etməsi muğamların həqiqi mənada sadə səs sistemindən ibarət olmasını yox, onların milli musiqi təfəkkür tərzi olmasını bir daha elmi faktların dili ilə təsdiq etdi.

Verilən izahlara əsasən belə nəticə çıxara bilərik ki, qədim saz alətinin tarixi və Azərbaycan muğamlarının tarixi kökü əvvəllər qeyd etdiyimiz kimi qədim şumer və b.e.ə. VI minilliklərdən yox, daha qədim olan Qobustan dövründən götürür. Deməli, həm sazın, həm də muğamların ən azı 14 min il tarixi vardır.

İndi isə Qobustan qayaüstü rəsmlərdə olan sazın şəkilləri ilə sazın şəkillərinin müqayisəli təhlilinə diqqət yetirək.

Saz ifaçıları gözəl bilir ki, hələ qədimdən sazın cürə saz, qoltuq saz və ana-tavar saz deyilən üç forması mövcud olmuşdur. Ana sazın forması ilə Qobustan dövründəki sazı müqayisə etsək, onların eyni formada və təqribən də eyni ölçülərdə olması ilə rastlaşacağıq.

Digər tərəfdən, sazın pərdə quruluşlarına gəldikdə isə deməliyik ki, əgər qədim ənənədə əcdadlarımız 3 pərdəli sazın quruluşunu vermək və ya qayaüstü rəsmdə göstərmək istəsəydilər, onu ud alətinin qolu kimi qısa şəkildə göstərə bilərdilər. Həm Qobustan, həm də qədim şumer dövründə tarın, sazın, tənburun uzunqollu olması faktları sübut edir ki, hələ o dövrdə ən azı bir oktava hüdudunda çalıb-oxumaq ənənəsi mövcud olmuşdur. Bu isə folklorumuzda və peşəkar ənənəvi musiqimizdə tam kamil musiqi sənətinin mövcud olması deməkdir.

Şumer dövrünə aid verilmiş qadın saz ifaçısının şəklində cürə sazın şəklini görürük. Bu da, tam məntiqidir. Çünki, qadının döşünə sıxıb çaldığı alətin kiçik həcmli ölçülərdə olması ifanı asanlaşdırır. Deməli, qədim instrumental musiqi ənənəmizdə ana sazla yanaşı cürə saz da olmuşdur.

Rəsmlərdə tarçalanların rəsmləri verilmişdir. Hər iki tar çalanın aləti sinədə çaldığı aydın şəkildə görünür. Bu fakt sübut edir ki, hələ 1998-ci ildə biz tarın Azərbaycanda sinədə çalınması ənənəsinin olmasını yazanda düzgün olaraq qeyd etmişdik. Rəsmlər özü sübut edir ki, bəzi musiqişünasların yazdığı kimi məşhur tarzən Sadıqcan tarı dizdən sinəyə qaldırmamışdır. Həm bu rəsmlər, həm də Sadıqcandan əvvəl yaşamış Əli Əkbər Fərənhainin rəsmlərində tarın sinədə çalınması ənənəsi olması faktı təsdiqlənir.

Dizdə çalmaq ənənəsi də qədim dövrlərdən mövcud olmuşdur. Tənburçalan kişinin rəsmindən aydın şəkildə görünür ki, qədim şumer dövründə tənburu diz üstündə çalardılar. İnstrumental musiqi tariximizi vərəqləsək, görərik ki, qədimdə olduğu kimi, orta əsrlərdə və müasir dövrümüzdə də tənbur diz üstündə çalınır. Türkmənlərdə, İran Azərbaycanında tənbur diz üstündə çalınır.

Muğam havalarının inkişaf tarixini izlədikdə onun b.e.ə. bir neçə tarixi inkişaf mərhələsində ən yüksək səviyyədə intişar tapdığının şahidi olursan. Elmi sənədlərin təhlillərinə əsaslanaraq deyə bilərik ki, milli musiqi sənətimizin inkişaf mərhələsi b.e.ə. XII minilliyə, ikinci inkişaf mərhələsi b.e.ə. VII minilliyə, üçüncü inkişaf mərhələsi IV-III minilliyə, dördüncü inkişaf mərhələsi II minilliyə, beşinci inkişaf mərhələsi isə I minilliyə düşür.

Muğam havalarını yaradan şəxslər ənənəvi musiqinin yüksək peşəkar sənətkarları olmuşlar. Yüksək peşəkar musiqiçi kamil sənət nümunəsi yaradır və onun bəstələdiyi musiqi havası öz kamilliyinə, yüksək sənət nümunəsinə görə seçilir. Muğam havaları öz inkişafını cəmiyyətin tərəqqisinə paralel şəkildə tapmışdır. Bu faktın özü təsdiq edir ki, Şərq aləmində klassik musiqi sənət nümunəsi sayılan muğamlar həmişə yeni cəmiyyətdə insanların kamilləşməsinə, bəşəri ideyalara, nəhayət, insanlığın inkişafına xidmət etmişdir...